HƏFTƏ İÇİ.AZ

**28.05.2011**

## 31 may Ümumdünya Tütünsüz Günüdür

1988-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Assambleyasının 42-ci sessiyasında 19 saylı qətnamə ilə 31 may Ümumdünya Tütünsüz Günü elan edilib. Bu gün tütün epidemiyasına, onun yaratdığı xəstəliklərə və ölüm hallarına diqqəti artırmaq məqsədilə qeyd edilir. Hər il Ümumdünya Tütünsüz Gününün mövzusu tütünlə mübarizənin bir probleminə yönəldilir. 2011-ci ilin Ümumdünya Tütünsüz Gününün mövzusu "Tütünə qarşı mübarizə haqqında ÜST-ün Çərçivə Konvensiyası"dır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzindən verilən məlumata görə, ictimai səhiyyənin əsas prioritet vəzifəsi olaraq, tütünlə mübarizədə adıçəkilən qurum ardıcıl işlər görür. Bununla əlaqədar İSİM-də "Azərbaycanda Tütünlə Mübarizə üzrə Milli Strategiya" hazırlanıb. 2010-cu ilin dekabrında İSİM-in bir qrup əməkdaşı tütünlə mübarizə təcrübəsinin öyrənilməsi məqsədilə Türkiyəyə səfər edib. İlkin səhiyyə xidmətləri səviyyəsində fəaliyyət göstərən həkimlər üçün nəzərdə tutulan "Tütünçəkmədən imtina etmə üzrə klinik protokol" tərtib edilib. Eyni zamanda, "Tütünlə mübarizə" mövzusunda 5-15 yaşlı uşaqlar arasında rəsm müsabiqəsi keçirilib, maarifləndirici bukletlər, plakatlar, broşüralar hazırlanıb. www.tobaccocontrol.az saytı yaradılıb və istifadəyə verilib. Eyni zamanda, passiv tütünçəkmə ilə mübarizədə görülən tədbirlərin davamı kimi video-çarx çəkilib. Həmçinin, Azərbaycanda ilk dəfə olaraq, 13-15 yaşlı məktəblilər arasında tütündən istifadə ilə bağlı tədqiqat aparılıb. Tədqiqatın sorğu hissəsi artıq başa çatdırılıb və respublika üzrə 25 məktəbi, 2047 şagirdi əhatə edib.

Digər tədqiqat "Qeyri-infeksion xəstəliklərin risk faktorlarının araşdırılması"dır. Bu sorğunun əsas məqsədi xroniki qeyri-infeksion xəstəliklərin risk faktorları haqqında ətraflı məlumat toplamaqdır. Belə risk faktorlarına həm də tütünçəkmə aiddir. Araşdırmanın nəticələri əsasında qeyri-infeksion xəstəliklərə qarşı milli strategiyanın hazırlanması planlaşdırılır. Hazırda Azərbaycanda "Siqaretçəkmənin məhdudlaşdırılması haqqında" qanun layihəsi hazırlanır. Qanunun qəbulundan sonra onun tətbiqinə dair müşahidələr aparılacaq.

***Sevda Zahidqızı***